## QİSMƏN QABAQCADAN ÖDƏMƏ ŞƏRTİ OLAN ALQI-SATQI MÜQAVİLƏSİ ƏSASINDA MƏHSUL SATILMASI:

### Müəssisə gəlirlərin və xərclərin uçotunu hesablama metodu ilə aparır

**Misal.** 2017-ci ilin noyabrında müəssisə gələcək mal göndərişi üçün 1.180 manat (o cümlədən ƏDV - 180 manat) məbləğində avans almışdır. 2017-ci ilin dekabrında dəyəri 3.540 manat (o cümlədən ƏDV - 540 manat) olan mal alıcıya göndərilmişdir. Qalıq 2.360 manat (o cümlədən ƏDV -360 manat) müəssisəyə 2018-ci ilin yanvarında ödənilmişdir.

*Bu əməliyyatdan müəssisənin 2017-ci ildə gəliri 3.000 (3.540-540) manat təşkil edir. Göstərilən məbləğ "2017-ci il üçün mənfəət vergisinin bəyannaməsi"nin 200-cü sətrində əks etdiriləcəkdir.*

### Müəssisə gəlirlərin və xərclərin uçotunu kassa metodu ilə aparır

**Misal.** 2017-ci ilin noyabrında müəssisə gələcək mal göndərişi üçün 1.180 manat (o cümlədən ƏDV - 180 manat) məbləğində avans almışdır. 2017-ci ilin dekabrında dəyəri 3.540 manat (o cümlədən ƏDV - 540 manat) olan mal alıcıya göndərilmişdir. Qalıq 2.360 manat (o cümlədən ƏDV-360 manat) müəssisəyə 2018-ci ilin yanvarında ödənilmişdir.

*Bu əməliyyatdan müəssisənin gəliri aşağıdakı kimi olacaqdır:*

- *2017-ci ildə - 1.000 manat (1.180 - 180). Göstərilən məbləğ "2017-ci il üçün mənfəət vergisinin bəyannaməsinin 200-cü sətrində əks etdiriləcəkdir;*
- *2018-ci ildə - 2.000 manat (2.360 - 360). Göstərilən məbləğ "2018-ci il üçün mənfəət vergisinin bəyannaməsinin 200-cü sətrində əks etdiriləcəkdir.*